## Qəbələ V Beynəlxalq Musiqi Festivalı

# Qəbələ dünyanın diqqətini yenidən özünə cəlb etdi

İyulun 24-də əzəmətli, ecazkar təbiətlə əhatələnən dağların qoynunda açılışı olan Qəbələ V Beynəlxalq Musiqi Festivalı dünyanın musiqi mədəniyyəti ilə bağlı insanların diqqətini bir daha özünə cəlb etmişdir.

Festival Heydər Əliyev Fondunun Prezidenti, ölkənin birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü ilə 2009-cu ildə ilk dəfə Qəbələdə başlamışdır. O vaxtdan indiyədək hər il Qəbələdə davam edən festival artıq bir ənənə şəklini almışdır. Festival başa çatdıqdan sonra öz vətənlərinə dönən dünya şöhrətli musiqiçilər, musiqisevərlər bir daha Qəbələyə qayıtmaq arzusu illə yaşayırlar.

Qəbələ həqiqətən Yer kürəsinin ən maraqlı, ən ecazkar təbiətə malik olan və ən qədim insan məskənlərindən biridir. Eramızdan əvvəl IV əsrdən bizim eranın demək olar ki, V əsrinə qədər, 900 il Qəbələ Qafqaz Albaniyasının ilk paytaxtı olmuş, dünyanın Babil, Troya, Pompey, Karfagen kimi qədim və məhşur şəhərləri ilə müqayisə ediləcək dərəcədə mühüm siyasi-iqtisadi və ticarət mərkəzi kimi tanınmışdır. Bu şəhər hətta arxeoloqların, tarixçilərin araşdırmalarına görə sonralar da XVII--XVIII əsrlərə qədər yaşaya bilmiş, qədim ipək yolunun üzərində yerləşmişdir.

Bəli, Qəbələnin bu günki sürətli sosial-iqtisadi inkişafı, artıq dünya mədəniyyət mərkəzlərindən birinə çevrilməsi demək olar ki, bu şəhərin keçmiş, qədim şöhrətini özünə qaytarır. Ən qədim insan məskənlərindən biri olan Qəbələ Azərbaycan ədəbiyyatına, elm və mədəniyyətinə bir çox tanınmış yazıçı, şair, alim, həkim, hərbiçi, ümumiyyətlə, milli tariximizdə silinməz izlər qoymuş görkəmli şəxsiyyətlər bəxş etmişdir. Bütün bunlar XX əsrin ən böyük tarixi şəxsiyyəti, dövlət xadimi Heydər Əliyev siyasətinin nəticəsidir. Heydər Əliyev siyasətinin davamçısı, ölkə başçısı cənab İlham Əliyevin həyata keçirdiyi islahatların, onun qətiyyətinin, təşkilatçılığın nəticəsidir ki, Azərbaycan dünyanın lider ölkəsidir.



O cümlədən Qəbələ şəhərinin özü də hazırda bütün dünyanın ən sürətlə inkişaf edən şəhərlərindən birinə çevrilmişdir.



Ənənəvi olaraq Qəbələ V Beynəlxalq Musiqi Festivalı iyulun 24-də saat 18-00-da Qafqaz hotelin salonunda kamera musiqisi ilə başladı. Fortopiano musiqi axşamında F.Y.Haydn, R.Şumanın, F. Şopenin, P. İ. Çaykovskinin əsərləri səsləndirildi.





Axşam, saat 21-00-da isə «fitnes» sağlamlıq mərkəzinin açıq səhnəsində festivalın açılış mərasimi oldu. Əvvəlcə Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban Xanım Əliyevanın festivala təbrik məktubu oxundu. Təbrik məktubunda festival iştirakçılarını ürəkdən salamlayan, onlara uğurlar diləyən, xoş arzularını bildirən Mehriban xanım Əliyeva deyir: «Nüfuzu ildən-ilə artmaqda olan Qəbələdə Beynəlxalq Musiqi Festivalının keçirilməsi ənənəvi xarakter almışdır. Bu gün Qəbələnin adı Beynəlxalq tədbirlərin təşkil olunduğu şəhərlərin adları ilə bir sırada yer alır. Dünyanın bir çox ölkəsindən çoxsaylı musiqiçilərin iştirak etdiyi bu dostluq və musiqi bayramı mədəni irsimizin zəngin ənənələrinin qorunub saxlanması ilə yanaşı, müxtəlif ölkələri təmsil edən musiqiçilərlə ünsiyyət və əməkdaşlıq üçün əlverişli şərait yaradaraq, mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsinə öz töhfəsini verir».

Sonra söz Milli Məclisin deputatı el ağsaqqalı Fəttah Heydərova, festivalın bədii rəhbəri, Azərbaycan Respublikasının xalq artisti, Azərbaycan Dövlət Mükafatı Laureatı, Ü. Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru və professoru Fərhad Bədəlbəyliyə verildi. Millət vəkili ənənəvi Qəbələ festivalı münasibətilə qonaqları, bütün festival iştirakçılarını, dinləyiciləri bu əlamətdar musiqi bayramı münasibətilə salamladı, təbrik etdi, onlara xoş arzularını bildirdi. Bütün bu gözəl ənənələr, sürətli sosial-iqtisadi inkişaf böyük tarixi şəxsiyyət Heydər Əliyev siyasətinin və bu siyasətin cənab ölkə başçısı İlham Əliyev tərəfindən uğurla, fədakarlıqla və qətiyyətlə davam etdirilməsinin nəticəsidir.

Fərhad Bədəlbəyli çıxışında festival iştirakçılarını salamladıqdan sonra festivalın proqramının çox rəngarəng olduğunu söylədi və qeyd etdi ki, hər il olduğu kimi bu il də festival iştirakçıları və qonaqlar arasında dünyanın tanınmış kollektivləri, şöhrətli musiqiçilər, ustad sənətkarlar, gələcəyi parlaq gənclər iştirak edirlər.

Festivalın proqramı çox rəngarəngdir. Simfonik və kamera konsertləri, muğam və caz gecəsi musiqisevərlərə dünya musiqisinin zənginliyini bir daha musiqi tək əsrarəngiz təbiətlə harmoniyada duymağa imkan verəcək.

Festival ilk gecədə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin ifasında P. İ. Çaykovskinin K. Sen-Sansın, Bethovenin, Q. Qarayevin, F. Əmirovun K. Əkbərovun, Q. Qasımzadənin, A. Qəmbərlinin əsərləri ilə davam etdi.

İyulun 25, 26-da festivalda səslənən musiqi əsərlərini minlərlə qonaqlar və qəbələlilər böyük maraqla dinləmişlər.

Festival avqustun 6-dək davam edəcək.

**Nadir ATAKİŞİYEV.**